# “Qaz təchizatı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

“Qaz təchizatı haqqında” Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

qüvvədə olan qanunvericilik aktlarının “Qaz təchizatı haqqında” Azərbaycan Respublikası Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

(Çıxarılıb) [1]

həmin Qanunun 1-ci maddəsinin axırıncı abzasında, 3-cü maddəsinin 3-cü hissəsində, 5-ci maddəsinin 2-ci hissəsində, 8-ci maddəsinin 1-ci, 3-cü, 4-cü və 5-ci hissələrində, 9-cu maddəsinin 2-ci və 4-cü hissələrində, 11-ci maddəsinin 1-ci və 5-ci hissələrində, 12-ci maddəsinin 5-ci hissəsinin birinci və ikinci abzaslarında, 13-cü maddəsinin 5-ci hissəsində, 15-ci maddəsinin 2-ci hissəsində və 3-cü hissəsinin birinci, ikinci və üçüncü abzaslarında, 16-cı maddəsinin 3-cü hissəsində, 17-ci maddəsinin 1-ci və 2-ci hissələrində, 18-ci maddəsinin 2-ci hissəsinin ikinci abzasında, 20-ci maddəsində, 21-ci maddəsinin 1-ci və 2-ci hissələrində göstərilmiş “müvafiq icra hakimiyyəti orqan”ları barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

qaz təchizatı haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

bu fərmanın 2-ci bəndində Azərbaycan Respublikası Nazirlər Kabinetinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərə dair müvafiq normativ-hüquqi aktların işlənib hazırlanmasını və təsdiq edilməsini təmin etsin;

öz səlahiyyətləri daxilində “Qaz təchizatı haqqında” Azərbaycan Respublikası Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

“Qaz təchizatı haqqında” Azərbaycan Respublikası Qanununun 13-cü maddəsinin 3-cü hissəsinin birinci və ikinci cümlələrində və 19-cu maddəsinin 1-ci hissəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir; [2]

həmin Qanunun 13-cü maddəsinin 4-cü hissəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Tarif (qiymət) Şurası həyata keçirir; [3]

həmin Qanunun 17-ci maddəsinin 4-cü hissəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanları”nın səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər.

həmin Qanunun 13-cü maddəsinin 11-ci hissəsinin ikinci cümləsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini qaydanın müəyyən edilməsi hissəsində Azərbaycan Respublikasının Nazirlər Kabineti, haqqın müəyyən edilməsi hissəsində Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası həyata keçirirlər. [4]

**Azərbaycan Respublikasının Prezidenti**
**HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 28 sentyabr 1998-ci il

№ 773

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 11 oktyabr 2001-ci il tarixli 587 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 10, maddə 640**)
2. 23 oktyabr 2003-cü il tarixli 980 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 10, maddə 585**)
3. 19 iyul 2004-cü il tarixli 87 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 7, maddə 526**)
4. 14 iyun 2007-ci il tarixli 588 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 6, maddə 601**)
5. 01 oktyabr 2010-cu il tarixli **336** nömrəli Azərbaycan Respublikasının Fərmanı (**"Azərbaycan" qəzeti, 03 oktyabr 2010-cu il № 216, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 10, maddə 848)**
6. 20 fevral 2011-ci il tarixli **422** nömrəli Azərbaycan Respublikasının Fərmanı (**"Azərbaycan" qəzeti, 22 fevral 2011-ci il, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 04, maddə 291)**

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 23 oktyabr 2003-cü il tarixli 980 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 10, maddə 585**) ilə 1-ci bəndin dördüncü abzası çıxarılmışdır.

Əvvəlki redaksiyada deyilirdi:

~~"Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun müddəalarını nəzərə alaraq, qaz sahəsində ayrı-ayrı fəaliyyət növlərinə xüsusi icazə (razılıq) verən müvafiq icra hakimiyyəti orqanları barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;~~

[2] 19 iyul 2004-cü il tarixli 87 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 7, maddə 526**) ilə 2-ci bəndinin ikinci abzasından "**17-ci maddəsinin 3-cü hissəsində**" sözləri çıxarılmışdır.
Əvvəlki redaksiyada deyilirdi:

~~"Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun 13-cü maddəsinin 3-cü hissəsində, 17-ci maddəsinin 3-cü hissəsində və 19-cu maddəsinin 1-ci hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;~~

20 fevral 2011-ci il tarixli **422** nömrəli Azərbaycan Respublikasının Fərmanı ("**Azərbaycan" qəzeti, 22 fevral 2011-ci il, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 04, maddə 291)** ilə 2-ci bəndinin ikinci abzasında "**13-cü maddəsinin 3-cü hissəsində**" sözləri "**13-cü maddəsinin 3-cü hissəsinin birinci və ikinci cümlələrində**" sözləri ilə əvəz edilmişdir.

[3] 11 oktyabr 2001-ci il tarixli 587 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 10, maddə 640**) ilə 2-ci bəndin üçüncü abzasında "**Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsi**" sözləri "**Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi**" sözləri ilə əvəz edilmişdir.

14 iyun 2007-ci il tarixli 588 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 6, maddə 601**) ilə 2-ci bəndinin

üçüncü abzasında «**orqanları»nın səlahiyyətlərini Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi həyata keçirirlər**» sözləri «**orqanı»nın səlahiyyətlərini Tarif (qiymət) Şurası həyata keçirir**» sözləri ilə əvəz edilmişdir.

[4] 01 oktyabr 2010-cu il tarixli **336** nömrəli Azərbaycan Respublikasının Fərmanı ("**Azərbaycan" qəzeti, 03 oktyabr 2010-cu il № 216, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 10, maddə 848)** ilə 2-ci bəndinə yeni məzmunda beşinci abzas əlavə edilmişdir.